AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
AKADEMİK H.Ə.ƏLİYEV ADINA
**COĞRAFİYA İNSTİTUTU**
BAKI, H.Cavid pr.115, AZ1143
Tel.: (+994 12) 538-29-00
Faks: (+994 12) 539-69-66
E-mail: info@igaz.az
www.igaz.az

AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
NAMED ACADEMICAN H.A.ALIYEV
**INSTITUTE OF GEOGRAPHY**
BAKU, H.Javid Ave.115, AZ1143
Tel.: (+994 12) 538-29-00
Fax: (+994 12) 539-69-66
E-mail: info@igaz.az
www.igaz.az

№ 27-4/282 "19" 10 2018 il.

**"SİNAM" Məhdud Məsuliyyətli**

**Cəmiyyətin direktoru cənab**

**Əbülfət Rəhmanova**

**AMEA H.Ə.Əliyev adına Coğrafiya İnstitutunda "FARABİ" (BTMN) layihəsi çərçivəsində tətbiq olunan "SERP" proqram təminatına dair**

**RƏY** məktubu

2016-cı ildən başlayaraq bizim institutumuzun mühasibatlıq və kadr şöbəsinə Sinam şirkətinin SERP tətbiqi başlanmışdı. Bu Proqram təminatı ilə yeni bir dönəmi başladı. **"SERP"** mühasibatlığın və kadr şöbəsinin çətin işini çox yüngülləşdirdi, yeni imkanlar yaratdı.

Kadrlar şöbəsində əmrlərin vaxtında bazada yığılması nəticəsində iş vaxtından istifadə cədvəlinin avtomatik hazır olması, ştat cədvəlinin asan formada yaradılması, şəxsi kartların elektron formasına keçməsi işi asanlaşdırdı.

Əmək haqqının hesablanmasında ən vacib məqamlar vergilərin düzgün hesablanmasıdır. Bu cəhətdən proqramın gəlir vergisini, DSMF tutulmalarının və s. düzgün və avtomatik hesablanması insan faktorunun elədiyi səhvləri qat-qat azaltmışdır.

Məzuniyyətlər vaxtı proqramda məzuniyyətin hesablanması mühasiblərin işini üç dəfədən çox tezləşdirmişdi. Bu da işçilərimizin vaxtı-vaxtında məzuniyyət haqqlarını alması deməkdir.

Bank köçürmələri mühasibatlığın ən əsas işlərindən biridir. Kontraqentlərin rekvezitlərini bir dəfə daxil etməklə, ödəniş tapşırıqlarının daha tez yaradılmasını, onların əsasında avtomatik yaranan xəzinədarlıq və bank sənədləri bu sahənin işini daha çevik edir.

Əsas vəsait və mal-material uçotu təşkilatın balansında olan bütün material vəsaitlərini əhatə edir. Ay ərzində mədaxil və məxaric olan vəsaitlərın, yerdəyişmələrin, inventarizasiyanın aparılmasının təşkili çox vaxt aparan məsələlərdir. Proqramda bu modulun olması və onun içində həm əsas vəsaitlərin, həm də azqiymətli aktivlərin uçotunun düzgün təşkili əlverişlidir.

Proqramda hesbatların çoxşahəli, ətraflı və aydın olması tərifə layiqdir. Hər hesabın, hər maddənin pul hərəkətini çox asan izləmək olar. Ən əsası rüblük və illik hesabatları (balans) çox tez və dəqiq əldə edilir, bu da hesabatların vaxtı-vaxtında müvafiq qurumlara təqdim etmək imkanı yaradır.

İki ildən çox **"FARRABİ"** layihəsi çərçivəsində bu proqramla işlədiyimizi nəzərə alaraq, Maliyyə Nazirliyinə və **"SİNAM"** şirkətinə dərin minnətdarlığımızı bildiririk və əminik ki, bu əməkdaşlıq uzun müddət davam edəcək.

**Baş mühasib:** **S.A.Mürsəlova**

**Kadrlar şöbəsinin müdiri:** **R.S.İsmayılov**